**AZƏRBAYCAN RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN**
**MÜLKİ KOLLEGİYASI**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2022-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T

MÜNDƏRİCAT

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2022-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat....................**s. 3-4**

2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2022-ci il üzrə baxılmış işlərə dair məlumat...............................................**s. 5-26**

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili.........................................................................................................**s. 27-49**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının**

**2022-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası 2022-ci ildə 15 hakimdən ibarət heyətlə fəaliyyət göstərmişdir. Cari il ərzində Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri Şəlalə Məmmədova və İlqar Xələfovun fəaliyyətinə hakimlik üzrə son yaş həddinə çatmaları ilə bağlı, hakim İsmayıl Xəlilovun fəaliyyətinə isə başqa vəzifəyə keçməsi ilə əlaqədar xitam verilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 23 dekabr 2022-ci il tarixli Qərarı ilə Ali Məhkəmənin hakimi təyin olunmuş Zəki Babayev, Vidadi Məmmədov və Əhliman Xıdırov Ali Məhkəmənin Plenumunun qərarına əsasən Mülki kollegiyanın tərkibinə daxil edilmişlər. Hazırda Ali Məhkəmənin Mülki Kollegiyasının tərkibi hakimlər Sənan Hacıyev (Mülki Kollegiyanın sədri), Ələsgər Əliyev, Mehparə Əhmədova, Əhməd Nurməmmədov, Əhməd Əhmədov, Elşanə Vəliyeva, Abiddin Hüseynov, Vüqar Həsənov, Zaur Əliyev, Elşad Şamayev, Aqil Abbasov, İspəndiyar Şəfiyev, Zəki Babayev, Vidadi Məmmədov və Əhliman Xıdırovdan ibarətdir.

1. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Mülki Kollegiya 2022-ci il ərzində aşağıdakı 3 mübahisəli məsələ ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət etməklə müvafiq qərardadlar qəbul edilmişdir. Hər 3 halda mübahisəli hüquqi məsələlərə hüquq ictimaiyyətinin diqqətini çəkmək məqsədi ilə Ali Məhkəmənin internet səhifəsi və sosial şəbəkələr vasitəsilə verilmiş məlumat nəticəsində maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və ayrı-ayrı təşkilatlar tərəfindən çoxsaylı yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) təqdim edilmiş, nəticədə Ali Məhkəmənin şəffaflığı və ictimaiyyətə açıqlığı təmin olunmuşdur.

*a) Əqdə əsaslanan iddialara baxıldığı halda, ayrıca icraatda həmin əqdin etibarlılığının mübahisələndirilməsinin mümkünlüyünə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 14 iyun 2022-ci il tarixli Qərardad;*

*b) Əqdə əsasən borclunun əmək haqqından akseptsiz qaydada tutmanın mümkün hədləri ilə bağlı qanunvericiliyin tətbiqi üzrə 14 dekabr 2022-ci il tarixli Qərardad ;*

*c) "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43.8-ci maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə 14 dekabr 2022-ci il tarixli Qərardad.*

2. 2022-ci il ərzində Mülki Kollegiya daxilində qanunverciliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı bir sıra hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırılmışdır.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinin dördüncü hissəsinə əsasən Məhkəmə Hüquq Şurası tərəfindən təsdiq edilmiş "Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması" Qaydalarına uyğun olaraq ilk dəfə "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 28 noyabr 2011-ci il tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının icrası üzrə məhkəmə fəaliyyətinin monitorinqi keçirilmişdir. Monitorinqin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı ilə təsdiq edilrək, "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 28 noyabr 2011-ci il tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarına əlavə və dəyişikliklər qəbul edilmişdir.

4. İş planına uyğun olaraq, 2022-ci ildə aşağıdakı 2 mövzu üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi aparılmışdır:

- "2021-ci ildə məhkəmələr tərəfindən baxılmış ər-arvadın birgə mülkiyyətinin bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi".

- "2021-ci ildə məhkəmələr tərəfindən baxılmış işlər üzrə mülki qanunvericilikdə kəsici müddətlərlə bağlı qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi"

5. Hesabat dövrü ərzində Mülki Kollegiya tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olan aşağıdakı 10 iş üzrə yazılı mülahizələr verilmişdir:

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1199-cu maddəsinin 1108-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 71, 81 və 82-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1 və 31.1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1, 1268.2 və 367.1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 179-cu maddəsinin şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159.5 və 1165-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 147 və 149-cu maddələrinin tələbi baxımından şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155-ci maddəsinin həmin Məcəllənin 4.3-4.6, 55.2, 152.1.6 və 152.1.6-1-ci maddələri ilə müqayisəli şəkildə şərh edilməsinə dair;*
*- "Hərbi qulluqçuların dövlət icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 21.5-ci maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1151.1, 1152, 1243, 1255 və 1321-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*
*- Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 50.2, 59.1, 357.1 və 357.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair.*

6. Mülki məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən təkrar kassasiya icraatında baxılıb yenidən apellyasiya instansiyası məhkəmələrinin qətnamələri ləğv edilmiş bütün qərarlar üzrə Ali Məhkəmənin əvvəlki göstərişlərinin icra olunması vəziyyəti öyrənilmişdir.

7. 2022-ci ildə 43 hakimin qiymətləndirilməsinə dair rəylər hazırlayaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

8. 2022-ci il ərzində Mülki kollegiyanın sədri tərəfindən 148 vətəndaşın qəbulu həyata keçirilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının**

**2022-ci il üzrə icraatında olan işlərinə dair məlumat**

**I** 2022-ci ildə Mülki Kollegiyanın icraatında cəmi 7284 iş olmuşdur. Onlardan 1150 (15.8%) iş 2021-ci ildən qalıq keçmiş, 6134 iş (84.2%) isə 2022-ci il ərzində daxil olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə icraatda olan işlərin sayı 913 (11.1%) iş azalmışdır. Belə ki, 2021-ci ilin müvafiq dövründə icraatda ümumən 8197 iş olmuşdur. Onlardan 1864 iş (22.7%) 2020-ci ildən qalıq keçmiş, 6333 iş (77.3%) isə 2021-ci il ərzində daxil olmuşdur.




2021-ci il ilə müqayisədə görünür ki, 2022-ci ildə icraatda olan işlərin sayı 913 iş (11.3%) azalmışdır.



**II** 2022-ci ildə Mülki Kollegiyanın icraatında 7011 mülki iş, xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı 268 iş, məhkəmə və digər orqanların qərarlarının icrası qaydasında icraat üzrə 5 iş olmuşdur. 2021-ci ildə icraatda ümumən 7953 mülki iş, xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı 236 iş, məhkəmə və digər orqanların qərarlarının icrası qaydasında icraat üzrə 8 iş olmuşdur.




2022-ci ildə Mülki Kollegiyanın icraatında cəmi 7011 mülki iş olmuşdur. Onlardan 1114 (15.9%) iş 2021-ci ildən qalıq keçmiş, 5897 iş (84.1%) isə 2022-ci il ərzində daxil olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə icraatda olan işlərin sayı 942 (11.8%) iş azalmışdır. Belə ki, 2021-ci ilin müvafiq dövründə icraatda ümumən 7953 mülki iş olmuşdur. Onlardan 1827 iş (22.9%) 2020-ci ildən qalıq keçmiş, 6126 iş (77.1%) isə 2021-ci il ərzində daxil olmuşdur.



**III** 2021-ci il ilə müqayisədə görünür ki, 2022-ci ildə icraatda olan mülki işlərin sayı 942 iş (11.8%) azalmışdır.




2021-2022-ci illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, icraata daxil olan qalıq işlərin sayı 2022-ci ildə 713 iş (39%) azalmışdır.



**IV** Mülki kollegiyanın icraatına 2019-cu ildə 8290 iş, 2020-ci ildə 6061 iş, 2021-ci ildə 6126 iş, 2022-ci ildə isə 5897 mülki iş daxil olmuşdur.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə edilmiş dəyişikliklər 2021-ci il 1 oktyabr tarixdə qüvvəyə mindikdən sonra Ali Məhkəmənin Mülki kollegiyasının icraatına daxil olan yeni işlərin sayında azalma müşahidə olunur.




2021-ci ildə daxil olan 6126 iş ilə 2022-ci ildə daxil olan 5897 işlərin sayını müqayisə etdikdə görünür ki, 2022-ci il ərzində daxil olan işlərin sayı 229 iş, icraatda olan mülki işlərlə icraata yeni daxil olan mülki işlərin faiz nisbətinin göstəricisi 7% azalmışdır.



**V** 2021-ci il ərzində Mülki Kollegiyanın icraatında olan 7953 mülki işdən 1114 (14%) iş növbəti ilə qalıq kimi keçmiş, 2022-ci ildə isə Mülki Kollegiyanın icraatında olan 7011 işdən 834 (11.9%) iş 2023-cü ilə qalıq kimi keçmişdir. 2021-2022-ci illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, növbəti ilə qalıq keçmiş işlərin sayı 280 iş, icraatda olan mülki işlərlə növbəti ilə qalıq kimi keçən işlərin faiz nisbətinin göstəricisi 2.1% azalmışdır.




**VI** 2022-ci il də Kollegiyanın icraatında olan 7011 mülki işdən 6177 (88.1%) işə baxılması yekunlaşmış, 834 (11.9%) iş növbəti ilə qalıq kimi keçmişdir.

**Qeyd**: İl ərzində yekunlaşmış işlərə, baxılmış, baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmış işlərin cəmi daxildir.



**VII** 2021-ci ildə Kollegiyanın icraatında olan 7953 mülki işdən 6839 işə (86%) baxılması yekunlaşmış, 2022-ci ildə isə Kollegiyanın icraatında olan 7011 mülki işdən 6177 işə (88.1%) baxılması yekunlaşmışdır. 2021-2022-ci illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, yekunlaşmış işlərin sayı 662 iş azalsa da, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə yekunlaşmış işlərin faiz nisbətinin göstəricisi 2.1% artmışdır.




**VIII** 2021-ci ildə Kollegiyanın icraatında olan 7953 işdən 657 iş (8.3%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. 2022-ci ildə isə Kollegiyanın icraatında olan 7011 işdən 750 iş (10.7%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin sayı 93 iş, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 2.4% artmışdır.



2022-ci il ərzində Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən 750 mülki iş üzrə kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılmış və ya kassasiya baxışından çıxarılmışdır. Onlardan 709 mülki işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadığından kassasiya şikayətləri qeyri-mümkün hesab edilmiş, 41 iş üzrə isə kassasiya şikayətləri icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə müraciət etdiyi müəyyən olunduğundan, icraata qəbul qərardadı ləğv edilərək iş kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytarılmışdır.

| *Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə əsas olmuş nöqsanlar* | |
|---|---|
| Əmlak xarakterli iddialar üzrə qətnamənin mübahisələndirilən hissəsində iddianın qiymətinin 5000 manatdan az olması (MPM 402.1) | 211 |
| Kassasiya şikayətinin məzmunu ilə bağlı tələblərin pozulması, o cümlədən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olmasının qeyd edilməməsi (MPM 407.1.4, 408.1.5) | 196 |
| Vəkil orderinin və ya dövlət rüsumunun şikayətə əlavə edilməməsi (MPM 407.4) | 73 |
| Kassasiya şikayətinin prosessual müddət ötürülməklə verilməsi (MPM 408.1.4) | 64 |
| Kassasiya şikayətinin imzalanmaması, yaxud hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanması (MPM 408.1.1) | 56 |
| Kassasiya şikayətinin forması ilə bağlı tələblərin pozulması (MPM 407.1 / Əlavə 3) | 50 |
| Kassasiya şikayəti verilməsi mümkün olmayan qərardadlardan şikayət verilməsi (MPM 402.2) | 25 |
| Kassasiya şikayəti ilə müraciət etmək hüququ olmayan şəxsin kassasiya şikayəti verməsi (MPM 403.1) | 24 |
| Kassasiya şikayətinin elektron qaydada verilməməsi (MPM 408.1.7) | 18 |

**IX** 2021-ci ildə yekunlaşmış 6839 işdən 69 iş (1%) aidiyyət mübahisələri ilə bağlı olmuşdur. 2022-ci ildə isə yekunlaşmış 6177 işdən 93 iş (1.5%) aidiyyət mübahisələri ilə bağlı olmuşdur. 2021-2022-ci illər üzrə müqayisədə aidiyyət mübahisələri ilə bağlı işlərin sayı 24 iş, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə aidiyyət mübahisələri ilə bağlı işlərin faiz nisbətinin göstəricisi isə 0.5% artmışdır.




**X** 2021-ci ildə Mülki Kollegiyada 6113 işə (76.9%) baxılmış, 2022-ci ildə baxılmış işlərin sayı isə 5334 iş (76%) olmuşdur. 2021-2022-ci illər üzrə Mülki Kollegiyada baxılmış işlərin müqayisəli təhlilindən görünür ki, baxılmış işlərin sayı 779 iş, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmış işlərin faiz nisbətinin göstəricisi isə 0.9% azalmışdır.




**Qeyd**: Baxılmış işlərə məhkəmə aidiyyəti mübahisələri ilə bağlı olmuş işlər istisna olmaqla, apellyasiya instansiyası məhkəmələrinin qərardad və qətnamələrindən verilmiş şikayətlər üzrə baxılmış işlər və kassasiya icraatına xitam verilmiş işlər daxildir.

**XI** 2022-ci ildə baxılmış 5334 işdən 4056 (76%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 1215 (22.8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 47 (0.9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 16 (0.3%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.




2021-ci ildə isə baxılmış 6113 işdən 4465 (73.1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 1554 (25.4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 58 (0.9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 36 (0.6%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.



**XII** 2021-ci ildə məhkəmə aktı dəyişdirilmədən saxlanılan 4465 iş Kollegiyada baxılmış 6113 işin 73.1%-ni təşkil etmişdir. 2022-ci ildə dəyişdirilmədən saxlanılan 4056 iş Kollegiyada baxılmış 5334 işin 76%-ni təşkil etmişdir. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə dəyişdirilmədən saxlanılan işlərin sayı 409 iş azalsa da, bu illər üzrə baxılmış işlərlə dəyişdirilmədən saxlanılan işlərin faiz nisbətinin göstəricisi 2.9% artmışdır.



**XIII** 2021-ci ildə məhkəmə aktı ləğv edilən 1554 iş baxılmış 6113 işin 25.4%-ni təşkil etmişdir. 2022-ci ildə ləğv edilən 1215 iş baxılmış 5334 işin 22.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə məhkəmə aktı ləğv edilən işlərin sayı 339 iş, bu illər üzrə baxılmış işlərlə ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 2.6% azalmışdır.






2021-ci ildə kassasiya icraatına xitam verilən 36 iş baxılmış 6113 işin 0.6%-ni təşkil etmişdir. 2022-ci ildə kassasiya icraatına xitam verilən 16 iş baxılmış 5334 işin 0.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə kassasiya icraatına xitam verilən işlərin sayı 20 iş, bu illər üzrə baxılmış işlərlə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0,3% azalmışdır.




2021-ci ildə məhkəmə aktı dəyişdirilən 58 iş Kollegiyada baxılan 6113 işin 0.9%-ni təşkil etmişdir. 2022-ci ildə məhkəmə aktı dəyişdirilən 47 iş Kollegiyada baxılan 5334 işin 0.9%-ni təşkil etmişdir. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 11 iş azalsa da, bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi eyni olmuşdur.



2022-ci ildə məhkəmə aktı ləğv edilən 1215 işdən 976 (80.3%) iş yeni apellyasiya baxışına göndərilmiş, 168 (13.8%) iş üzrə yeni qərar qəbul edilmiş, 7 (0.6%) iş baxılmamış saxlanılmış, 64 (5.3%) iş üzrə icraata xitam verilmişdir.




2021-ci ildə məhkəmə aktı ləğv edilən 1554 işdən 1303 iş (83.8%) yeni apellyasiya baxışına göndərilmiş, 134 iş (8.6%) üzrə yeni qərar qəbul edilmiş, 4 iş (0.3%) baxılmamış saxlanılmış, 113 iş (7.3%) üzrə icraata xitam verilmişdir.



Göründüyü kimi, 2021-ci il ilə müqayisədə 2022-ci ildə yeni apellyasiya baxışına göndərilmiş işlərin sayı 327 iş, bu illər üzrə ləğv edilən işlərlə təkrar baxışa göndərilən işlərin faiz nisbətinin göstəricisi 3.5% azalmışdır.




2021-ci il ilə müqayisədə 2022-ci ildə yeni qərar qəbul edilmiş işlərin sayı 34 iş, bu illər üzrə ləğv edilən işlərlə yeni qərar qəbul edilən işlərin faiz nisbətinin göstəricisi 5.2% artmışdır.



2021-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 113 iş ləğv edilən 1554 işin 7.3%-ni təşkil etmişdir. 2022-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 64 iş ləğv edilən 1215 işin 5.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən işlərin sayı 49 iş, bu illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iş üzrə icraata xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 2% azalmışdır.




**XV** Aşağıdakı diaqramda 2021-2022-ci illər üzrə Mülki Kollegiyanın icraatında olmuş işlərin göstəricilərinin faiz nisbətində nə qədər azalıb-artması göstərilmişdir.



## XVI. 2022-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin (5334) və baxılıb məhkəmə aktı ləğv edilən işlərin (1215) kateqoriyalar üzrə bölgüsü

| İndeks № | İddianın kateqoriyası | Baxılmış işlərin sayı | Faiz[1] | Ləğv olunmuş işlərin sayı | Faiz[2] |
|---|---|---|---|---|---|
| 1. | Ailə münasibətləri üzrə mübahisələr | 665 | 12.5% | 95 | 14.3% |
| 9. | Əmək mübahisələri | 288 | 5.4% | 68 | 23.6% |
| 13. | Mənzil mübahisələri | 629 | 11.8% | 158 | 25% |
| 14. | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 210 | 3.9% | 52 | 24.8% |
| 16. | Torpaq mübahisələri | 276 | 5.2% | 76 | 27.5% |
| 18. | Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi və məcburi bağlanması | 368 | 6.9% | 90 | 24.5% |
| 23. | Borc müqaviləsi üzrə mübahisələr | 338 | 6.3% | 64 | 18.4% |
| 24. | Kredit müqaviləsi (Bank və ya BOKT ilə bağlanan müqavilələr) üzrə mübahisələr | 901 | 16.9% | 180 | 19.9% |
| 20-22, 25-32 | Digər müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr | 425 | 7.9% | 118 | 27.8% |
| 33. | Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 390 | 7.3% | 88 | 22.6% |
| 34. | Vərəsəlik hüququ üzrə mübahisələr | 197 | 3.7% | 50 | 25.4% |
| 41. | Xüsusi icraat işləri üzrə | 57 | 1.1% | 20 | 35.1% |
| 56. | Şərəf və ləyaqətin müdafiəsi üzrə | 72 | 1.4% | 14 | 19.4% |
| 57. | Sair mülki işlər | 523 | 9.8% | 143 | 27.3% |

[1] Hər kateqoriya üzrə baxılmış işlərin sayının Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan ümumi işlərə münasibətdə faizlə göstəricisi.
[2] Hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi.

## 2021-2022-ci illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin (6113/5334) kateqoriyalar üzrə bölgüsü



## 2021-2022-ci illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş işlərin (1554/1215) kateqoriyalar üzrə bölgüsü

*QEYD: Diaqramda hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi verilmişdir.*



**XVI** 2022-ci ildə Mülki Kollegiyanın icraatında baxılmış 5334 işdən 662 (12.4%) iş təkrarən kassasiya icraatında baxılmışdır. 2021-ci ildə isə kollegiyanın icraatında baxılmış 6113 işdən 679 (11.1%) iş təkrarən kassasiya icraatında baxılmışdır. Bu illər üzrə baxılmış işlərlə kassasiya icraatında təkrarən baxılan işlərin faiz nisbətinin göstəricisi 1.3% artmışdır.




**2022**-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 662 mülki işdən 508 iş (76.7%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmış, 89 iş (13.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yenidən ləğv edilib, təkrar apellyasiya baxışına göndərilmiş, 41 iş (6.2%) üzrə yeni qərar qəbul edilmişdir.

**2021**-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 679 mülki işdən 459 iş (67.6%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmış, 118 iş (17.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yenidən ləğv edilib, təkrar apellyasiya baxışına göndərilmiş, 37 iş (5.5%) üzrə yeni qərar qəbul edilmişdir.



2022-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 662 işdən 37 iş (5.6%) üzrə Ali Məhkəmənin Mülki kollegiyasının əvvəlki göstərişləri icra olunmadığından, 56 iş (8.4%) üzrə isə göstərişlər qismən icra edildiyindən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmişdir. 2022-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 662 işdən 37 iş (5.6%) üzrə Ali Məhkəmənin əvvəlki göstərişləri tam icra edilsə də, apellyasiya instansiyası məhkəməsi tərəfindən digər maddi və prosessual hüquq normaları pozulduğundan məhkəmə qətnaməsi ləğv edilmişdir.






**XVII.** 2022-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **268** ərizə olmuşdur. Onlardan 36 (13.4%) ərizə 2021-ci ildən qalıq keçmiş, 232 (86.6%) ərizə 2022-ci il ərzində daxil olmuşdur. 217 (81%) ərizəyə baxılmış, 18 (6.7%) ərizə geri qaytarılmış, 33 (12.3%) ərizə 2023-ci ilə qalıq keçmişdir.

2021-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **236** ərizə olmuşdur. Onlardan 34 (15.7%) ərizə 2020-cu ildən qalıq keçmiş, 199 (84.3%) ərizə 2021-ci daxil olmuşdur. 177 (75%) ərizəyə baxılmış, 23 (9.7%) ərizə geri qaytarılmış, 36 (15.3%) ərizə 2022-ci ilə qalıq keçmişdir.

2021-2022-ci illər üzrə müqayisə etdikdə görünür ki, 2022-ci ildə Mülki Kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə **32** (13.6%) ərizə artmışdır.



2022-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 217 ərizədən 210 (96.8%) ərizə təmin edilmiş, 17 (3.2%) ərizə rədd edilmişdir.

2021-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 177 ərizədən 164 (92.7%) ərizə təmin edilmiş, 13 (7.3%) ərizə rədd edilmişdir.






# Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili


2022-Cİ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ İŞLƏRİN (5334 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 449 iş ; 8.41%
Naxçıvan MR Ali Məhkəməsi; 19 iş; 0.35%
Şirvan Apellyasiya Məhkəməsi; 654 iş; 12.26%
Bakı Apellyasiya Məhkəməsi; 2867 iş; 53.74%
Sumqayıt Apellyasiya Məhkəməsi; 652 iş; 12.22%
Gəncə Apellyasiya Məhkəməsi; 693 iş; 12.99%


2021-Cİ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ İŞLƏRİN (6113 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 598 iş ; 9.8%
Naxçıvan MR Ali Məhkəməsi;28 iş; 0.5%
Şirvan Apellyasiya Məhkəməsi; 705 iş; 11.5%
Bakı Apellyasiya Məhkəməsi; 3125 iş; 51.1%
Sumqayıt Apellyasiya Məhkəməsi; 757 iş; 12.4%
Gəncə Apellyasiya Məhkəməsi; 900 iş; 14.7%




Diaqramlardan göründüyü kimi, 2022-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış 5334 işdən 2867 iş (53.74%) Bakı Apellyasiya Məhkəməsindən, 693 iş (12.99%) Gəncə Apellyasiya Məhkəməsindən, 652 iş (12.22%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 654 iş (12.26%) Şirvan Apellyasiya Məhkəməsindən, 449 iş (8.41%) Şəki Apellyasiya Məhkəməsindən, 19 iş (0.35%) isə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən daxil olmuşdur.

2022-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş 1215 işdən 631 iş (51.93%) Bakı Apellyasiya Məhkəməsindən, 164 iş (13.49%) Gəncə Apellyasiya Məhkəməsindən, 156 iş (12.83%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 168 iş (13.82%) Şirvan Apellyasiya Məhkəməsindən, 92 iş (7.57%) Şəki Apellyasiya Məhkəməsindən, 4 iş (0.32%) Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuşdur.

**Apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış işlərə münasibətdə 2020-2022-ci illər üzrə faiz göstəriciləri**

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 22% | 24% | 22% |
| Gəncə Apellyasiya Məhkəməsi | 21.07% | 22.6% | 23.7% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 21% | 29.7% | 23.9% |
| Şirvan Apellyasiya Məhkəməsi | 19.7% | 29.9% | 25.7% |
| Şəki Apellyasiya Məhkəməsi | 22.46% | 26.6% | 20.5% |
| Naxçıvan MR Ali Məhkəməsi | 22.7% | 14.3% | 21.1% |

**2020-2022-ci illər üzrə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin faiz göstəricilərinin müqayisəsi**



2022-ci il ərzində Mülki Kollegiya tərəfindən kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş 709 mülki işdən 355 iş Bakı Apellyasiya Məhkəməsindən, 97 mülki iş Gəncə Apellyasiya Məhkəməsindən, 105 mülki iş Sumqayıt Apellyasiya Məhkəməsindən, 90 mülki iş Şirvan Apellyasiya Məhkəməsindən, 42 mülki iş Şəki Apellyasiya Məhkəməsindən, 3 mülki iş Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, 17 mülki iş birinci instansiya məhkəmələrindən daxil olmuşdur.

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | Kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılan işlərin sayı |
|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 355 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 105 |
| Gəncə Apellyasiya Məhkəməsi | 97 |
| Şirvan Apellyasiya Məhkəməsi | 90 |
| Şəki Apellyasiya Məhkəməsi | 42 |
| Naxçıvan MR Ali Məhkəməsi | 3 |
| Birinci instansiya məhkəmələri | 17 |
| 1) Salyan Rayon Məhkəməsi | 4 |
| 2) Binəqədi Rayon Məhkəməsi | 2 |
| 3) Nərimanov Rayon Məhkəməsi | 2 |
| 4) Nəsimi Rayon Məhkəməsi | 2 |
| 5) Nizami Rayon Məhkəməsi | 2 |
| 6) Yasamal Rayon Məhkəməsi | 2 |
| 7) Qəbələ Rayon Məhkəməsi | 1 |
| 8) Sumqayıt Şəhər Məhkəməsi | 1 |
| 9) Xətai Rayon Məhkəməsi | 1 |

# BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2022-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 2867 işə baxılmış, 2207 iş (77%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 631 iş (22%) üzrə məhkəmə aktı ləğv edilmiş, 21 iş (0.7%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 8 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2021-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 3125 işə baxılmış, 2321 iş (74.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 752 iş (24%) üzrə məhkəmə aktı ləğv edilmiş, 30 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 22 iş (0.7%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin sayı 258 iş azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 2.7% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 2% azalmışdır.

2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.3% azalmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.4% azalmışdır.









Diaqramlardan göründüyü kimi, Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində azalma müşahidə edilir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 631 işdən 83 iş (13.2%) üzrə yeni qərar qəbul edilmiş, 513 iş (81.3%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 2 iş (0.3%) üzrə ərizə baxılmamış saxlanılmış, 33 iş (5.2%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 752 işdən 69 iş (9.2%) üzrə yeni qərar qəbul edilmiş, 624 iş (82.9%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 2 iş (0.3%) üzrə ərizə baxılmamış saxlanılmış, 57 iş (7.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



# GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2022-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 693 işə baxılmış, 520 iş (75%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 164 iş (23.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 6 iş (0.9%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 3 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2021-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 900 işə baxılmış, 679 iş (75.4%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 203 iş (22.6%) üzrə məhkəmə aktı ləğv edilmiş, 11 iş (1.2%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 7 iş (0.8%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin sayı 207 iş (23%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 0.4% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 1.1% artmışdır.

2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.3%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.4% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Gəncə Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020 - 2022-ci illər üzrə artım müşahidə edilir.*

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 164 işdən 28 iş (17.1%) üzrə yeni qərar qəbul edilmiş, 127 iş (77.4%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (6.3%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 2 iş (1.2%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 203 işdən 15 iş (7.4%) üzrə yeni qərar qəbul edilmiş, 172 iş (84.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 15 iş (7.4%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.5%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.



## SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2022-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 652 işə baxılmış, 491 iş (75.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 156 iş (23.9%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2021-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 757 işə baxılmış, 523 iş (69.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 225 iş (29.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 6 iş (0.8%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin sayı 105 iş (13.8%), azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 6.2%, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 5.8% azalmışdır.

2021-ci illə müqayisədə 2022-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı dəyişməmiş, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.1% artmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi 0.5% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Sumqayıt Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021 – 2022-ci il üzrə azalma müşahidə edilir.*

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 156 işdən 24 iş (15.4%) üzrə yeni qərar qəbul edilmiş, 125 iş (80.1%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (4.5%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 225 işdən 17 iş (7.6%) üzrə yeni qərar qəbul edilmiş, 190 iş (84.4%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 17 iş (7.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.4%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.



# ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2022-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 654 işə baxılmış, 474 iş (72.5%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 168 iş (25.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 10 iş (1.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2021-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 705 işə baxılmış, 484 iş (68.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 211 iş (29.9%) üzrə məhkəmə aktı ləğv edilmiş, 9 iş (1.3%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.1%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin 51 iş (7.2%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 3.8% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 4.2% azalmışdır.

2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.2%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.2% artmışdır.









*Diaqramlardan göründüyü kimi, Şirvan Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020 - 2021-ci illər üzrə kəskin artım, 2021-2022-ci il üzrə isə azalma müşahidə edilir.*

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 168 işdən 22 iş (13.1%) üzrə yeni qərar qəbul edilmiş, 136 iş (80.9%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 8 iş (4.8%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 2 iş (1.2%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 211 işdən 22 iş (10.4%) üzrə yeni qərar qəbul edilmiş, 174 iş (82.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 15 iş (7.1%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



# ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2022-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 449 işə baxılmış, 349 iş (77.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 92 iş (20.5%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1.6%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.2%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2021-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 598 işə baxılmış, 434 iş (72.6%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 159 iş (26.6%) üzrə məhkəmə aktı ləğv edilmiş, 5 iş (0.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, kassasiya icraatına xitam verilən iş olmamışdır.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin sayı 149 iş (24.9%), azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 5.1% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 6.1% azalmışdır.

2021-ci illə müqayisədə 2022-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 2 iş (40%) artmış, 2021-ci ildə kassasiya icraatına xitam verilən iş olmamış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.8% artmışdır.









*Diaqramlardan göründüyü kimi, Şəki Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020 - 2021-ci illər üzrə artım, 2021-2022-ci illər üzrə isə azalma müşahidə edilir.*

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 92 işdən 11 iş (11.9%) üzrə yeni qərar qəbul edilmiş, 72 iş (78.3%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 8 iş (8.7%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (1.1%) üzrə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılmışdır.

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 159 işdən 10 iş (6.3%) üzrə yeni qərar qəbul edilmiş, 140 iş (88%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 9 iş (5.7%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

2022-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 19 işə baxılmış, 15 iş (78.9%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 iş (21.1%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

2021-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 28 işə baxılmış, 24 iş (85.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 iş (14.3%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

Göründüyü kimi, 2021-ci illə müqayisədə 2022-ci ildə baxılmış işlərin sayı 9 iş (32.1%), məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı isə 9 iş (37.5%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı dəyişməmiş, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 6.8% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 6.8% artmışdır.









*Diaqramlardan göründüyü kimi, Naxçıvan MR Ali Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2020-2021-ci il üzrə azalma müşahidə edilsə də, 2021-2022-ci il üzrə artım müşahidə edilir.*

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 4 işdən 3 iş (75%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (25%) üzrə məhkəmə aktı ləğv edilib, iş üzrə icraata xitam verilmişdir.

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2021-ci ildə məhkəmə aktı ləğv edilən 4 işdən 1 iş (25%) üzrə məhkəmə aktı ləğv edilib, yeni qərar qəbul edilmiş, 3 iş (75%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

